# Səhnə ilə yazılan ömür - aktyorluq sənətinə könülsüz başlanan könül hekayəsi



**Bəzən həyat bizi ən çox uzaq durduğumuz yollara salır və zamanla həmin yol bizim öz yolumuza çevrilir. Bu gün adını Azərbaycan teatr sənətində uğurla təsdiqləmiş aktyorlardan birinin - səhnəyə könülsüz addım atan, amma orada özünü tapan bir sənətkarın hekayəsini təqdim edirik. Musiqiyə olan sevgisi ilə yola çıxsa da, taleyin qərarı onu aktyorluq dünyasına gətirdi. İlk addımlarını Cənnət Səlimovanın məktəbində atdı, səhnənin çətinliklərini yaşaya-yaşaya formalaşdı və bu sənətin görünməyən tərəflərini sevərək içsələşdirdi. Bu yazı aktyorluğun arxa planını, bu sənətin zahiri parlaqlığının arxasında dayanan zəhməti, duyğunu və səmimiyyəti oxucuya yaxınlaşdırır.**

Müsahibimiz aktyor, televiziya aparıcısı, Azərbaycan Respublikasının əməkdar artisti Əkbər Əlizadədir:

**- Əkbər müəllim, aktyorluğa marağınız necə başladı? Bu sahəyə gəlməyinizin hekayəsini danışın.**

- Aktyorluğa heç vaxt marağım olmayıb. Əsla. Düzdür, tamaşalara getmişik, məktəb illərində tamaşalar göstərmişik, səhnəciklər oynamışıq. Məktəb illərində həvəsim hər zaman müğənniliyə olub. Mədəniyyət və İncəsənət Universitetinə daxil olanda müğənni olmaq həvəsi ilə Musiqili Teatr aktyorluğu fakültəsinə daxil olacaqdım. Amma bölgü əsnasında dram, teatr və kino fakültəsində təhsil almalı oldum. Peşman da deyiləm. Çünki aktyor olmaq çox çətindir. Həddən ziyadə çətindi. Mən Cənnət Səlimovanın kursunda təhsil almışam. Görkəmli teatr rejissoru, Xalq artisti, Şöhrət ordenli pedaqoquma dərin təşəkkürümü bildirirəm ki, aktyorluq sənətinin sirlərini lazımı dərəcədə mənə aşıladı.

**- İlk dəfə səhnəyə çıxanda hansı hissləri keçirdiniz?**

- Səhnəyə elə universitetin birinci kursundan, yəni 1994-cü ildən çıxdım. İndiki Akademik Musiqili Teatrda fəaliyyətə başladım və illər keçdikcə həm Afaq Bəşirqızının "Bəşir Teatrı"nda, Cənnət Səlimovanın Kamera Teatrında, Akademik Milli Dram Teatrda, Planet Parni iz Baku Tv teatrında müştərək olaraq fəaliyyət göstərdim. Hər bir səhnə adamı kimi ilk dəfə səhnəyə çıxanda çox həyəcanlı idim. Təlaş keçirirsən, hisslərini cilovlaya bilmirsən, amma səhnəyə çıxana qədər. İlk cümləni deyirsən, səndə bir rahatlıq, sərbəstlik baş qaldırır. Gəl görəsən. İnamlı olmasan, ümumiyyətlə səhnəyə çıxa bilməzsən. İlk dəfə mən səhnəyə aktyor olaraq yox, Heydər Əliyev Sarayında Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyində aparıcılıq edərkən bu missiyanı daşıdım. Zalda Ulu Öndərimiz Heydər Əliyev əyləşmişdi və mən Azərbaycan dilində mətni söyləyirdim. Bir neçə dildə həmin mətn səslənirdi. Mən də Azərbaycan dilində öz cümlələrimi tamaşaçılara çatdırırdım.

**- Sizi aktyor kimi formalaşdıran əsas müəllim və ya ilham mənbəyiniz kim olub?**

- Məni aktyor kimi püxtələşdirən, təkmilləşdirən, formalaşdıran xalq artisti Cənnət Səlimova olub. O, tək pedaqoqluq eləmirdi Bizə həyatı aşılayırdı. İnsan həyatda necə davranmalıdır, İnsanlarla necə rəftar göstərib, necə ünsiyyət qurmalıdır. Böyük bir məktəbdi Cənnət xanım.

**- İndiyədək oynadığınız rollar arasında sizin üçün ən çətin və ya unudulmaz olanı hansı olub?**

- İkinci kursda oxuyurdum. 1997-ci ildə Akademik Milli Dram Teatrda elə Cənnət Səlimovanın quruluşunda "Fərhad və Şirin" tamaşası səhnələşdirildi. Mən orda Xosrovun oğlunu oynayırdım. Şiruyə rolunda çıxış edirdim. Bizim nəhəng aktyorlarımızla tərəf müqabili idim. Xalq artisti Mikayıl Mirzə Ramiz Novruzov, Həsən Məmmədov, Rafiq Əzimov, Mələykə Əsədova, əməkdar artistlər Hicran Nəsirova, yəni çox çətin idi. Amma bütün bunların müqabilində onlar gənclərə dəstək idi. O cümlədən də mənə.



**- Obraz yaratma prosesi sizdə necə gedir? Bir rola necə hazırlanırsınız?**

- Bilirsiniz, bu, böyük bir prosesdir. Mən ş ə x s ə n özümdən çıxış edərək müşahidələrimə arxalanıram, düzdür, təxəyyülümü də işə salıram və bir də düşünürəm obrazın ərsəyə tam dolğun şəkildə gəlməsi üçün aktyorun evdə rol üzərində tapşırığı var. Mütləq evdə rol üzərində çalışmalıdır, işləməlidir. Müşahidələri onun karına gəlməlidir. Mənim iş prinsipim belədir, bir də istər-istəməz obrazın danışığı, yerişi, jestikulyasiyaları da obrazın yaranmasına böyük bir kömək göstərir.

**- Aktyorluq sizə nə öyrədib? Sizi bir insan kimi necə dəyişib?**

- Aktyorluq ilk növbədə onu öyrədir ki, sən mütaliə edirsən, obraz üzərində çalışırsan, oynadığın rolun kimliyini araşdırırsan. Burda psixoloji məqamlar var. O insan kimdi, nəçidi, nə işlə məşğuldur, İnsanlarla necə dil tapır, necə ünsiyyət qurur, istər-istəməz sadaladığım bu amilləri özündə tətbiq edirsən. Bir az da təkmilləşirsən. Aktyorluq sənətində böyüməđinsə, irəliləmədinsə, demək sən aktyor deyilsən. Bu inkişaf mərhələsi aktyorda istər-istəməz müşahidə olunur. Əgər kimsə öz həyatında istədiyi hansısa bir işə, peşəyə öz mövqeyini göstərirsə, sən burda oynadığın obraza münasibətini göstərirsən və deyirsən ki, əgər onun yerində olsaydım, necə davranardım, necə hərəkət edərdim, başqasının həyatını oynayırsan, özün deyilsən o saatda. O məqamda tamaşaçı qarşısındasan. Rol da o vaxt uğurlu alınır ki, tamaşaçı səni tam bambaşqa yöndən görür, bəyənir və alqışlayır. Bir insan kimi məni dediyim tərəfdən dəyişib. Amma mən Əkbər olaraq elə özüm özlüyümdə də qalmışam. Təbii ki, aktyor da səhnədə oynayanda tamaşaçı bilməlidir ki, bu rolu filankəs oynayır. Aktyor olduğundan artıq səhnədə tanınmaz halda görünməməlidir.

**- Tamaşaçı zövqündə son illər nə kimi dəyişikliklər hiss edirsiniz?**

- Belə bir məsəl var, deyirlər: kimin nəyə güldüyündən, mən bəlli edərəm ki, o necə insandır. Bu gün insanlar, tamaşaçıların çoxu sanki qruplara bölünüblər. Nəyə gülsünlər? Bəzən məntiqli, sətiraltı, şüuraltı gülüş doğuracaq fikirlərə gülmək istəməyə bilərlər. Niyə? Çünki əqli işə salmalıdırlar, fikirləşməlidirlər, yəni düşünərək gülmək. Amma tamaşaçı da var ki, deyir yox, elə belə halva çeynəməyim, çənəmə ağırlıq düşməsin, elə halva çeynəmədən yalnız damaq dadımdan hiss eliyim. Bu şəkildə, yəni halvanı dadıb udduğun kimi o cür çox səthi yanaşan tamaşaçılar da var.

Mən öz teatrımızdan deyə bilərəm ki, Akademik Musiqili Teatra gələn tamaşaçılar məni tam şəkildə qane edir, razı salır. O baxımdan ki, mədəniyyət nümayiş etdirirlər. Tamaşaçı ilk növbədə dinləməyi bacarmalıdır, dinlədikdə reaksiya verir və o reaksiya verdikləri halda gülüş, alqış istər-istəməz zalda qarşılıqlı elə bir enerji yaranır ki, sən bilirsən ki, zalda oturan tamaşaçının düşüncəsi hansısa dərəcədə, həddədir. O sənin istər-istəməz oyununa da böyük bir motivasiya verir.

**- Ən çox hansı duyğunu səhnədə ifadə etmək çətindir?**

- Səhnədə sevgini, sevgi hissini ifadə etmək çətindir. Qorxmaq, sevinmək, təəccüb, əsəb, gerginlik, təlaş. bütün bunlar öz yerində. Amma sevgi elə bir ülvi hissdir ki, sən onu oynaya bilməzsən. Yəni kimisə, obrazın tərəf müqabilinin fonunda sən sevdiyini gözünün qarşısına gətirib onu canlandırmalısan. Məhz o zaman o hisslərin dilə gəlir və tamaşaçıya ötürülür. Yalandan sevdim, öldüm, mənə elə gəlir ki, tamaşaçı bunu çox asanlıqla həzm eləməz. Sevgini ifadə etmək çətindir.

**- Siz aktyorluqla yanaşı həmçinin aparıcılıq da etmisiniz, edirsiniz. Sizə görə hansı daha asandır? Ya da hansı sizi daha çox əks etdirir?**

- Aktyorluq sənəti çox çətin peşədir. Elə sözləri əzbərlədim çıxdım, deklamasiya etdim kimi fikirlə bitmir. Çox çətindir. Yəni o prosesin içinə daxil olan görür ki, çox məşəqqətli bir yoldur aktyor sənəti. Ona görə illərlə tamaşaçıların yaddaşında yaşayırsan. Aparıcılığa gəlincə isə aparıcılıqda sən özünsən. Burda səmimiyyət, sadəlik, olduğun kimi görünməyin çox vacibdir. Aktyorluqda da mən özümü əks etdirirəm, amma daha çox aparıcılıqda. Mən özüməm, olduğum və göründüyüm kimiyəm.

**- Gənc aktyorlara və bu sənətə gəlmək istəyənlərə nə məsləhət verərdiniz?**

- Ümumiyyətlə, eşidəndə ki, hər hansı bir yeniyetmə, gənc aktyorluq sənətinə gəlmək istəyir, ürəyim dağa dönür, dəstəkləyirəm. Bu çox gözəl bir haldır ki, gənclərimiz gəlsin, bu yolu davam etdirsinlər. Sadəcə olaraq qonşu respublikalardan - Gürcüstan, Türkiyə olsun Rusiyanın özündə, yəni bizim aktyorlar onlarla müqayisə olunmazdı. O baxımdan ki, bilirsiz, puldan danışanda deyirlər ki, pul girsən, amma bu sənət maddiyyat tələb edir. Ona görə mən gənclərimizə dözüm arzulayıram, səbr diləyirəm. Çünki filmlərimiz inşallah çəkilmir, çəkilər, televiziya tamaşaları yoxdur, inşallah olar, istər təqvimdə əlamətdar günlərdə, bayram günlərində aktyorlarımız məşğul olanlar, cəlb olunanlar, çəkilişlərə, bunlar böyük bir şərtdir. İnşallah, ümid edək ki, gənclərimiz sənətdə istədikləri kimi özlərini realizə edə bilərlər. Bir də bu sənətdə dözümlük lazımdır. Dözmək, mübariz olmaq, ruhdan düşməmək.

**- Son olaraq tamaşaçılara və sizi sevənlərə nə demək istərdiniz?**

- Məni sevən tamaşaçılarımıza ilk növbədə dərin təşəkkürümü bildirirəm. Çünki bizi yaşadan tamaşaçılardır. Onlar yoxdusa, biz də yoxuq. Bizə dəyər verən, bizi qiymətləndirən, bizi ucaldan tamaşaçılardır. Harada olduğumuzdan asılı olmayaraq, məsələn, üz üzə gələndə haləhval tuturlar, salamlaşırlar, pərəstiş etdiklərini bildirirlər. İnsan bir şirin dilə bənddi deyirlər, amma aktyor, səhnədə olan insan ondan da artığına bənd olur, oynadığı rolu dəyərləndirsinlər, fikir bildirsinlər, səciyyələndirsinlər. O baxımdan bütün tamaşaçılarıma təşəkkürümü bildirirəm. Mayın 23-ü mənim doğum günümdür. Məni təbrik edəcək, edən bütün tamaşaçılarıma, əzizlərimə, doğmalarıma, həmkarlarıma dərin təşəkkürlərimi bildirirəm.

**GÜLXANIM ƏLİYEVA**